# Cahana sığmayan dahi



"Nəsimi ili" çərçivəsində Biləsuvar Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi mədəniyyət ocaqlarında gerçəkləşən tədbirlər də rəngarəngliyi ilə seçilir. Hər bir müəssisə öz profilinə uyğun olaraq həm ayrılıqda, həm də digər müəssisələrlə birgə böyük söz ustadının 650 illiyinə töhfə verməyə çalışırlar.

Klub tipli müəssisələrdə ədəbi-bədii gecələr, şeir məclisləri, səhnəciklər, kitabxanalarda kitab sərgiləri və səyyar xidmətlər, muzeylər, rəsm qalereyaları və Heydər Əliyev mərkəzlərində müxtəlif məzmunlu dəyirmi masalar təşkil edilib. Regional idarənin tabeliyindəki uşaq musiqi və incəsənət məktəbləri də bu prosesdən kənarda qalmayıb. Nəsiminin zəngin irsinin şagirdlər tərəfindən musiqili-poetik formada canlandırılması şairin yaradıcılığının gələcək nəsillərə çatdırılmasına xidmət edir.

***

Biləsuvar rayon Mədəniyyət Mərkəzində fəaliyyət göstərən "Pəncərə" teatr-studiyası tərəfindən Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tamaşa təqdim olunub. Nümayişdən öncə çıxış edən Biləsuvar Regional Mədəniyyət İdarəsinin rəis müavini Rəfiqə Cəfərova dahi şairin ömür yoluna və yaradıcılığına nəzər salıb, "Nəsimi ili" çərçivəsində təşkil edilən tədbirlərdən söz açıb.

Sonra mütəfəkkir şairin həyat və yaradıcılığının əks olunduğu tamaşa təqdim edilib və izləyicilər tərəfindən maraqla qarşılanıb. Tamaşanın regional idarənin digər rayonlarında da nümayişi planlaşdırılır.

* * *

Salyan şəhərində rayon İcra Hakimiyyəti və Mədəniyyət mərkəzinin birgə təşkilatçılığı ilə möhtəşəm muğam gecəsi keçirilib. Gecədə Nəsiminin zəngin poetik irsinə müraciət olunub və xanəndələr şairin qəzəlləri üstündə muğamlar səsləndiriblər. Bütün ifalar alqışlarla qarşılanıb.







Salyan rayon MKS-nin Uşaq şöbəsinin təşkilatçılığı ilə Nəsiminin 650 illiyinə həsr olunan ədəbi-bədii gecə keçirilib. Tədbirdə şairin yaradıcılığını əks etdirən, eləcə də Nəsimi irsinin tədqiqini əhatə edən kitab sərgisi təqdim olunub. Məktəblilər şairin poeziyasından nümunələr səsləndiriblər.

Salyan rayon Aşağı Noxudlu kənd orta məktəbində "Məndə sığar iki cahan" adlı ədəbi-bədii gecə keçirilib. Kənd kitabxana filialının təşkilatçılığı ilə gerçəkləşən tədbirdə müəllimlər, kitabxanaçılar şairin həyat və yaradıcılığı haqqında geniş məlumat veriblər. Məktəblilər şairin qəzəllərindən ibarət kompozisiyalar təqdim ediblər.

***

Neftçala rayon Heydər Əliyev Mərkəzində Nəsiminin 650 illik yubileyi münasibətilə təşkil olunmuş tədbirdə Biləsuvar Regional Mədəniyyət İdarəsinin rəisi Elçin Hüseynov, mədəniyyət işçiləri, rayon ictimaiyyəti iştirak edib.

Mərkəzin direktoru Könül Məmmədova xalqımızın mənəvi dəyərlərinin yaşadılması istiqamətində görkəmli ədiblərin, mədəniyyət xadimlərinin yubileylərinin qeyd edilməsinin əhəmiyyətindən danışıb. Sonra K.Məmmədovanın ssenari müəllifi olduğu, Nəsiminin həyatından bəhs edən tamaşa təqdim edilib. Musiqinin müşayiəti ilə şairin qəzəllərinin səsləndirilməsi tədbirə xüsusi rəng qatıb.

Dəvət olunan qonaqlardan Azərbaycan Yazıçılar Birliyinin Güney Azərbaycan şöbəsinin rəhbəri Sayman Aruz, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun əməkdaşları Sevinc Əliyeva, Qüdsiyyə Qəmbərova, Nizami adına Ədəbiyyat İnstitutundan filologiya üzrə fəlsəfə doktorları Xuraman Hümbətli, Mərziyyə Nəcəfova çıxış edərək tədbirin təşkilinə görə mədəniyyət işçilərinə təşəkkürlərini bildiriblər.

Rayon Heydər Əliyev Mərkəzində keçirilən "Nəsimi ili, Nəsimi dili" adlı tədbirdə isə 4 saylı orta məktəbin müəllimləri Turanə İmanova, Badam Kərimova çıxış edib, şagirdləri şairin qəzəllərini oxuyublar, söz ustadının hikmət xəzinəsi əsasında səhnəcik nümayiş olunub. Uşaqların çıxışı tamaşaçılarda xoş ovqat yaradıb.

Mərkəzdə Neftçala şəhər 3 saylı tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Aytəkin Axundzadə və şagirdlərinin iştirakı ilə açıq dərs də keçirilib. Məktəbin 6, 8 və 9-cu sinif şagirdləri tarın müşayiəti ilə Nəsiminin qəzəllərini söyləyiblər. Mərkəzin elmi işçiləri Nəsiminin həyat və yaradıcılığı haqqında məruzə ilə çıxış ediblər. Böyük şairin Azərbaycan ədəbiyyatının inkişafına verdiyi töhfələrdən söz açılıb. Şairin yaradıcılığının janr və dil-üslub xüsusiyyətləri vurğulanıb. Sonda şagirdlərin sualları cavablandırılıb.







Bundan əlavə, Heydər Əliyev Mərkəzinin kitabxanasında 1 saylı tam orta məktəbin müəllim və şagird kollektivinin iştirakı ilə "Nəsimi qiraət günü" adlı kitab müzakirəsi təşkil olunub. Müzakirədə əsas diqqət Nəsimi və müasirlik mövzusuna, çağdaş dövrümüzdə şairin ideyalarının, onun mənəvi xəzinəsinin faydalarına və yaradıcılığının təbliğinin vacibliyinə yönəldilib. Qeyd olunub ki, altı əsr keçməsinə baxmayaraq, Nəsiminin söz xəzinəsi öz dəyərini qoruyub saxlayır. Şairin yaradıcılığı dünyanı sülhə, insanları birliyə və mənəvi saflığa səsləyir.

Neftçala rayon Mərkəzi Kitabxanasında təşkil olunan "Cahana sığmayan şair" adlı ədəbi-bədii gecədə kitabxananın məktəbli oxucuları Nəsimi yaradıcılığının motivləri əsasında səhnəciklər təqdim ediblər.

***

Biləsuvar Regional Mədəniyyət İdarəsinin Cəbrayıl rayon Mərkəzi Kitabxanasında Nəsiminin 650 illik yubileyi münasibətilə "Cahana sığmayan şair" başlığı altında tədbir keçirilib. Tədbirdə rayon ziyalıları və məktəblilər iştirak ediblər. Çıxışlarda Nəsiminin Azərbaycan poeziyasındakı yerindən, şairin ideyalar aləminin zənginliyindən söz açılıb. Vurğulanıb ki, Nəsimi özündən sonra ədəbi hərəkata böyük təsir göstərib, onun poetik ənənələri yaşadılıb. Sonda iştirakçılar Nəsimi yaradıcılığını əks etdirən kitab sərgisinə baxıblar.

Biləsuvar rayon 8 saylı köçkün qəsəbəsində fəaliyyət göstərən Cəbrayıl rayon Nüzgar kənd klubunda "Nəsimi 650" başlığı altında tədbir təşkil olunub. Klub işçilərinin hazırladığı ədəbi-bədii kompozisiyalarda şairin söz, hikmət zənginliyi bir daha nümayiş etdirilib.

Cəbrayıl rayon MKS-nin 17 saylı kitabxana filialında keçirilən "Nəsimi poeziyası" mövzulu tədbirdə kitabxanaçı Ziyafət Məmmədova şairin həyat və yaradıcılığı haqqında oxuculara məlumat verib. Bildirilib ki, Nəsimi insanları kamil və azad düşüncəli görmək istəyirdi. Sonra məktəbli oxucular şairin qəzəllərini qiraət ediblər.





Biləsuvar rayon 11 saylı köçkün qəsəbəsində fəaliyyət göstərən Cəbrayıl rayon Hovuslu kənd klubu və Həsənqaydı kənd kitabxanasının birgə təşkilatçılığı ilə böyük şairin yubileyi münasibətilə tədbir keçirilib. Tədbir çərçivəsində kitab sərgisi, klub işçiləri tərəfindən şairin qəzəllərindən ibarət ədəbi-bədii kompozisiya təqdim edilib.

* * *

"Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Biləsuvar Regional Mədəniyyət İdarəsi üzrə tədbiri Neftçala şəhərindəki Heydər Əliyev Mərkəzinin qarşısında keçirilib. Festivalın sərgi hissəsində dekorativ sənət nümunələri, rəsm əsərləri, yerli sənətkarların əl işləri nümayiş olunub. Milli Qəhrəman Xanoğlan Məmmədov adına Neftçala rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən "Cırtdan" kukla teatrının "Kilimarası" tamaşası balacalar tərəfindən maraqla qarşılanıb. Festival çadırlarının ətrafında milli geyimli xanımların nümayiş etdirdikləri sacda yuxa bişirilməsi, yun əyirilməsi, corab toxunması kimi milli məişətimizə xas olan elementlər də diqqət çəkib.

Konsert proqramında bölgələrin özfəaliyyət dərnəkləri, musiqi və folklor kollektivləri çıxış edib. Sakinlər bölgələrdə bu cür yaradıcılıq festivallarının keçirilməsinin əhəmiyyətini yüksək qiymətləndirərək, təşkilatçılara minnətdarlıqlarını ifadə ediblər.

